AZƏRBAYCAN XƏBƏRLƏRİ

# 'BakıKart'ın satış qiyməti bahalaşır

51 dəqiqə öncə




Metrodakı problemlər bitmir: 'Normal işləyən bir o qalmışdı, onu da...'

Bu il iyulun 1-dən etibarən "BakıKart"ın satış qiyməti 2 manatdan 3 manata qaldırılacaq. Bu barədə "BakıKart"dan yerli KİV-lərə məlumat verilib.

**"Kart istehsalı, texniki xidmət, logistika və infrastruktur xərclərində baş verən artımlar nəzərə alınaraq qiymətə yenidən baxılıb. Bu dövr ərzində... rəqəmsal xidmətlər daha da genişləndirilib. Qiymət dəyişikliyi yalnız yeni alınan 'BakıKart' kartlarına şamil olunur. Gediş haqlarında və mövcud kartların balansında dəyişiklik yoxdur"**, – açıqlamada bildirilir.

"BakıKart" Bakı metrosunda və bir çox avtobus xətlərində tətbiq olunan vahid ödəniş kartıdır. Dövriyyəyə 2015-ci ildə buraxılıb. O vaxtdan metro və avtobusda gediş haqları bir neçə dəfə artırılıb.

7 may

## 'BakuBus' və taksi xidməti Metropolitenə birləşdirilir

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (QSC) yenidən təşkil ediləcək. Bununla bağlı Prezident **İlham Əliyev** bu gün, mayın 7-də fərman imzalayıb.

Fərmana əsasən, “BakuBus” və “Bakı Taksi Xidməti” Məhdud Məsuliyyətli Cəmiyyətləri “Bakı Metropoliteni” QSC-nin tərkibinə birləşdirilir.

Fərmana görə, "Bakı Metropoliteni" QSC ictimai nəqliyyatda sərnişindaşmanın keyfiyyətini və təhlükəsizliyini yüksəltməlidir. Xidmətlərin təşkili və gediş haqqının ödənilməsi üçün yeni, rəqəmsal həllər tətbiq etməlidir. Həmçinin bu sahəni vahid mərkəzdən idarə etməli və əlaqələndirməlidir.

QSC-nin fəaliyyətinə ümumi rəhbərlik və nəzarət üçün sədr daxil olmaqla, beş üzvdən ibarət Müşahidə Şurası yaradılır.

"Bakı Taksi Xidməti" 2015-ci ildə Nəqliyyat Nazirliyinin, "BakuBus" isə 2014-cü ildə Bakı Şəhər İcra Hakimiyyətinin tabeçiliyində yaradılıb.

## Xatırlatma

Son illərdə taksi fəaliyyəti sahəsində qəbul edilmiş qərarlar və qanunvericilik dəyişiklikləri, rəsmi olaraq, xidmətin keyfiyyətinin artırılması məqsədi daşıyıb. Lakin nəticədə taksilərin sayında azalma və qiymət artımı müşahidə olunub. Müstəqil iqtisadçılar bu prosesi taksi xidmətinin inhisara alınması kimi dəyərləndiriblər.

Ötən il oktyabrın 1-də metro və bəzi marşrutlarda gediş haqqı 60 qəpiyə qaldırılıb. Halbuki, metro və bir sıra marşrutlarda gediş haqqı ondan bir il əvvəl də 10 qəpik artırılmışdı. Bəzi müstəqil ekspertlər hesab edir ki, hökumət bu fərmandan sonra yenidən qiymət artımına gedə bilər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur